# Əbədi qayıdışın müəllifi

*Zaman 2020-ci il mayın 28-i, məkan Bakının Qaradağ rayonu...* Prezident İlham Əliyev məcburi köçkünlər üçün salınmış "Qobu Park-3" yaşayış kompleksinin açılış mərasimində məcburi köçkün ailələrinə yeni mənzillərinin açarlarını təqdim edərək təbrik etdi, eyni zamanda qətiyyətlə bildirdi ki, bu, məcburi köçkünlər üçün müvəqqəti yaşayış yeridir: "Torpaqlarımız işğaldan azad ediləndən sonra biz bu gün hələ də işğal altında olan torpaqlarda buna oxşar gözəl binalar, şəhərciklər tikəcəyik, ermənilər tərəfindən dağılmış şəhərlərimizi yenidən quracağıq".

Və dövlət başçısının məcburi köçkünlərlə keçirdiyi həmin tarixi görüşün düz ikinci ili tamam olanda, 2022-ci ilin mayında, Müstəqillik Günü ərəfəsində Prezident İlham Əliyev Zəngilan rayonunun Ağalı kəndində "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində bütün keçmiş məcburi köçkünlərə "Bu gün Böyük qayıdış dediyimiz prosesə start verildi" gözaydınlığını verdi.

Çox keçmədən ay-ulduzlu, üçrəngli Azərbaycan bayraqları ilə bəzədilmiş köç karvanları ilə ağalılılar doğma yurdlarına qayıdıb, orada xoşbəxt həyata başlamışdılar.

Bu, hər zaman andına, vədinə sadiq olan Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqına verdiyi daha bir sözünü qətiyyətlə yerinə yetirməsinin möcüzəvi məqamı idi.

## Ən böyük missiya torpaqlarımızın azadlığına nail olmaq idi

Hələ Prezident kimi fəaliyyətə başladığı ilk dövrdə, 2003-cü ildə İlham Əliyev söz vermişdi ki, beş il ərzində Azərbaycanda bir dənə də olsun çadır şəhərciyi qalmayacaq. Belə də oldu, cəmi 4 il ərzində, 2007-ci ildə bu böyük hədəfə çatdı.

Məcburi köçkünlərin həyat şəraitlərinin yaxşılaşdırılması dövlət başçısının bir nömrəli prioriteti idi və 2020-ci ilə qədər ölkədə məcburi köçkünlər üçün 100-dən çox qəsəbə-şəhərcik salındı, ötən müddət ərzində Azərbaycanda 300 mindən çox məcburi köçkün mənzillərlə, fərdi evlərlə təmin edildi, həmçinin onların problemləri ardıcıl şəkildə öz həllini tapdı.

Amma dövlət başçısı İlham Əliyevin vətəni, xalqı qarşısında üzərinə götürdüyü ən böyük missiya işğal altında qalan torpaqlarımızı azadlığına qovuşdurmaq idi. O, Konstitusiyamıza və müqəddəs "Qurani-Kərim"ə əl basaraq and içmişdi ki, Azərbaycanın ərazi bütövlüyünü təmin ediləcək və Vətən müharibəsindəki Şanlı Qələbə sayəsində bu müqəddəs andını böyük müvəffəqiyyətlə gerçəkləşdirdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyev işğaldan azad edilmiş Ağdam şəhərində Cümə məscidinə Məkkədən gətirdiyi müqəddəs "Qurani-Kərim"i bağışlayarkən torpaqlarımızın işğaldan azad olunmasından duyduğu xoşbəxtlik hissini belə dilə gətirmişdi: "Mən xoşbəxt adamam ki, dörd dəfə Məkkə ziyarətində olmuşam. Bir dəfə rəhmətlik atamla, üç dəfə isə Prezident kimi. Xoşbəxtəm ki, mən ailə üzvlərimlə bərabər müqəddəs Kəbənin içində dualar etmişəm. Hər bir insanın ürəyində nə varsa, mənim ürəyimdə də eyni duyğulardır.

Etdiyim duaların arasında birinci duam torpaqlarımızın işğaldan azad edilməsi idi. Allahdan xahiş edirdim, mənə güc versin ki, biz torpaqları işğalçılardan azad edək, o xoşbəxtliyi bizə nəsib etsin, biz yenə də dədə-baba torpağımıza qayıdaq".

## "Hər zaman mənim gözlərimin önündə onlar idi"

Azərbaycan dövləti hər zaman qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görüb. Fəaliyyətinin ilk dövründən qaçqınların və məcburi köçkünlərin problemlərinin həllini prioritet olaraq müəyyənləşdirən İlham Əliyevin 2003-cü il prezident seçkiləri ərəfəsində proqramının tərkib hissəsi də bu məsələ idi. Beləliklə, onların müvəqqəti yaşayış yerlərindən və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi, yaşayış şəraitlərinin yaxşılaşdırılması, sosial rifahlarının yüksəldilməsi üçün dövlət proqramları icra edildi.

Keçmiş məcburi köçkünlərin problemlərinin həlli, mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması, onlara hərtərəfli qayğı göstərilməsi birbaşa dövlət başçısı İlham Əliyevin şəxsi diqqəti və nəzarəti altında həyata keçirildi. Dövlət başçısı özü də söyləyirdi ki, hər zaman mənim gözlərimin önündə onlar idi, nə qədər əzab çəkdilər, nə qədər əziyyət çəkdilər, amma sınmadılar, möhkəm durdular. Budur Azərbaycan! Budur Azərbaycan xalqı!"

Elə bu illər ərzində yüz minlərlə keçmiş məcburi köçkünün hər birində vətənə dönmə ümidini sönməyə qoymayan da onların Prezident İlham Əliyevə olan tükənməz inamları idi. Keçmiş məcburi köçkünlər bir gün mütləq İlham Əliyevin onları öz doğma yurdlarına qaytaracağına əmin idilər. Buna görə də keçmiş məcburi köçkünlər onlara verilən yeni yaşayış yerlərində özlərini qonaq, müvəqqəti sakin kimi hiss edirdilər. Torpaqlarımızın işğaldan azad ediləcəyi və yurdlarına qayıdacaqları günü səbirsizliklə gözləyirdilər.

Baş sərkərdə olaraq qətiyyəti, əzmi, gücü sayəsində Vətən müharibəsində cəmi 44 günə torpaqlarımızı işğaldan azad edən Müzəffər Ali Baş Komandan Zəfərdən dərhal sonra "Əziz keçmiş köçkünlər, siz artıq köçkün deyilsiniz..." söyləyərək yurdundan zorla didərgin salınan vətəndaşlarımızı sevinc gözyaşlarına boğan müjdəni verdi.

Müzəffər Ali Baş Komandan "...Mən onlara bizim bu qəhrəman əsgər və zabitlərimizin hüzurunda müraciət edərək deyirəm. Siz köçkün deyilsiniz, siz qayıdırsınız. Biz sizi qaytaracağıq. Bax, burada oturanlar, bizim minlərlə əsgər və zabitlərimiz sizi öz doğma dədə-baba torpaqlarınıza qaytarırlar. Biz Azərbaycan dövləti isə əlimizdən gələni edəcəyik ki, sizi tezliklə qaytaraq...", - deyə bəyan etdi.

## Xoş çağırışlarla üz-üzə

Azərbaycanın parlaq Zəfərinin əsas qayələrindən biri də məcburi köçkünlərin öz doğma torpaqlarına qovuşdurulması idi.

Xalqımız bu milli qayəsinə Prezident İlham Əliyevin ötən illər ərzində böyük məharətlə yürütdüyü mükəmməl siyasət sayəsində addım-addım inamla irəiləmişdi.

Bu müqəddəs yolda qazandığımız parlaq qalibiyyətlərdən birini Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu 2016-cı ildə Lələtəpə zəfəri zamanı qazanmışdı. Bunun sayəsində də 2017-ci ildə Böyük qayıdışın ilk möhkəm təməlləri atılmış, Cəbrayılın Cocuq Mərcanlı kəndinə öz sakinlərinin qayıdışı gerçəkləşdirilmiş və orada yeni həyat başlamışdı.

Həmin gün illərdən sonra yenidən öz yurd-yuvalarına qayıdan soydaşlarımızın yanında olan Prezident İlham Əliyev Lələtəpədə və işğaldan azad edilən digər ərazilərdə dalğalanan Azərbaycan bayrağının gün gələcək Şuşada dalğalanacağının xoş xəbərini vermişdi.

Vətən müharibəsində xalqımız Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi sözləri məharətlə gerçəkləşdirməsinə qürurla şahidlik etdi.

Parlaq Zəfərdən dərhal sonra Azərbaycan dövləti Qarabağ və Şərqi Zəngəzurda nəhəng tikinti və quruculuq işlərinə, bir qərinəyə yaxın əziyyət, mənəvi əzab içində yaşamış məcburi köçkünlərin maksimum qısa müddət ərzində öz doğma torpaqlarına qaytarılması üçün misilsiz layihələr gerçəkləşdirməyə başlayıb.

"Hazırda biz keçmiş məcburi köçkün və qaçqınları öz doğma yurdlarına mümkün qədər tez bir zamanda geri qaytarmaq üçün nəhəng bir çağırışla üz-üzəyik", - deyə bu il oktyabrın 5-də Ağdamda keçirilən Azərbaycan Milli Şəhərsalma Forumunda Prezident İlham Əliyev söylədi ki, "...Əminəm ki, bu insanlar buna layiqdirlər. Onlar uzun illər boyu çətin şəraitdə yaşayıblar. Baxmayaraq ki, biz 300 mindən çox məcburi köçkünü yeni ev və mənzillərlə təmin etmişik, bu mənzillərin açılışı zamanı onlar bizə minnətdarlıqlarını bildirirdilər və hər dəfə qeyd edirdilər ki, bizi öz torpaqlarımıza qaytarın. Mən onlara hər dəfə söz verirdim ki, bunu reallaşdıracağam və mən fəxr edirəm ki, biz bunu reallaşdıra bildik və artıq Böyük Qayıdış Proqramı başlayıb".

## İmzadan kəsərli söz

*Zaman 2021-ci il, məkan Qarabağ və Şərqi Zəngəzur...*

Qalib Lider İlham Əliyev rayonlarımızın erməni işğalından azad olunduqları qurtuluş günlərində o yerlərə doğma sakinləri ilə birgə yollanır, keçmiş köçkünləri ev sahibi kimi salamlayır, "Xoş gəlmisiniz!" deyir və eyni zamanda əminliklə vurğulayır ki, tezliklə onlar vətənlərinə dönəcək və özləri ona doğma ocaqlarında "Xoş gəlmisiniz, cənab Prezident!" söyləyəcəklər.

Üzərindən cəmi bir il keçdikdən sonra, 2022-ci il oktyabrın 19-da Zəngilan rayonunun Ağalı kənd sakinləri böyük qürurla onları doğma yurdlarına qovuşduran Müzəffər Ali Baş Komandan İlham Əliyevi öz evlərində qarşıladılar, "Xoş gəlmisiniz, cənab Prezident!" deyərək sevinclə salamladılar.

Bəli, bu, hər zaman andına, vədinə sadiq olan Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqına verdiyi daha bir sözünü qətiyyətlə yerinə yetirməsinin möcüzəvi məqamı idi.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***